Azərbaycan Respublikasının
Biznes Mühiti və Beynəlxalq
Reytinqlər üzrə Komissiyası

# MEDİADA İŞIQLANDIRILMIŞ MATERİALLARIN HƏFTƏLİK MONİTORINQİ

**• 17 – 23 fevral 2025-ci il •**

## “Kommunal xidmətlərlə bağlı vahid informasiya sisteminin yaradılması üzrə” Altqrupun görüşü

**21.02.2025**

“Kommunal xidmətlərlə bağlı vahid informasiya sisteminin yaradılması üzrə” Altqrupuna Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi rəhbərlik edir.

azertag.az

**“Kommunal xidmətlərlə bağlı vahid informasiya sisteminin yaradılması üzrə” Altqrupun görüşü baş tutub**




Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərlik etdiyi “Kommunal xidmətlərlə bağlı vahid informasiya sisteminin yaradılması üzrə” Altqrupun görüşü baş tutub.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri Vüsal Şıxəliyev, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) İdarə Heyətinin sədri Fərid Osmanov iştirak ediblər. Bununla yanaşı, toplantıya Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin digər altqurumları, Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, “Azərişıq” ASC və digər dövlət qurumlarının nümayəndələri qatılıblar.

Görüş zamanı Dünya Bankı Qrupunun yeni “Business Ready” hesabatında “Kommunal xidmətlərlə bağlı vahid informasiya sistemi” üzrə tələblər və qarşıda duran vəzifələr, kommunal xidmətlərlə bağlı vahid informasiya sistemi üzrə

tapşırıqlar və görülmüş işlərin statusu, kommunal xidmətlərə qoşulma üzrə elektronlaşma və rəqəmsallaşma istiqamətində görülmüş işlər və potensial imkanlar barəsində fikir mübadiləsi aparılıb.
İştirakçılar, həmçinin kommunal xidmət qurumlarında aparılan diaqnostikanın nəticələrini, Altqrupun əvvəlki iclasının Protokolunda qərara alınmış tədbirlərin icra vəziyyətini, Yol Xəritəsinin ilkin layihəsi üzrə təklifləri də müzakirə ediblər.

“Kommunal xidmətlərlə bağlı vahid informasiya sisteminin yaradılması üzrə” Altqrupuna Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi rəhbərlik edir.

**Mənbə:**

https://azertag.az/xeber/kommunal_xidmetlerle_bagli_vahid_informasiya_sisteminin_yaradilmasi_uzre_altqrupun_gorusu_bas_tutub-3430211

**Digər saytlar və portallar**

1. https://mincom.gov.az/az/media/xeberler/kommunal-xidmetlerle-bagli-vahid-informasiya-sisteminin-yaradilmasi-uzre-altqrupun-gorusu-bas-tutub
2. https://www.azerbaijan-news.az/az/posts/detail/kommunal-xidmetlerle-bagli-vahid-informasiya-sisteminin-yaradilmasi-uzre-altqrupun-gorusu-bas-tutubnbspnbsp-1740157259/353332
3. https://apa.az/infrastruktur/kommunal-xidmetlerle-bagli-vahid-informasiya-sisteminin-yaradilmasi-uzre-altqrupun-gorusu-bas-tutub-889533
4. https://xeberler.az/new/details/34214.htm
5. https://qaynarinfo.az/az/kommunal-xidmetlerle-bagli-vahid-informasiya-sisteminin-yaradilmasi-uzre-altqrupun-goerusu-bas-tutub
6. https://azvision.az/news/376281
7. https://ritor.az/iqtisadiyyat/6265-kommunal-xidmtlrl-bagli-vahid-informasiya-sisteminin-yaradilmasi-uzr-altqrupun-gorusu-bas-tutub.html
8. https://sizinxeber.az/economy/infrastruktur/71877-kommunal-xidmtlrl-bal-vahid-informasiya-sisteminin-yaradlmas-zr-altqrupun-gr-ba-tutub.html
9. https://fhnews.az/news/details/ldquokommunal-xidmatlarla-bagli-vahid-informasiya-sisteminin-yaradilmasi-459437
10. https://www.respublika-news.az/az/news/kommunal-xidmetlerle-bagli-vahid-informasiya-sisteminin-yaradilmasi-uzre-altqrupun-gorusu-bas-tutub

“Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi” İşçi qrupunun iclası

19.02.2025

report.az

**Azərbaycanda Bakı Arbitraj Mərkəzi yaradılıb**




Bakı Arbitraj Mərkəzi Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınıb.
"Report" xəbər verir ki, Bakı Arbitraj Mərkəzi Fransanın Paris-Est Creteil Universitetinin hüquq üzrə professoru, Paris Vəkillər Kollegiyasının üzvü, Azərbaycan Arbitraj Assosiasiyasının sədri və Azərbaycan Respublikasının Ali məhkəməsinin elmi-məsləhət şurasının üzvü Professor Kəmalə Mehdiyeva tərəfindən təsis olunub.
Kəmalə Mehdiyeva qeyd edir ki, Bakı Arbitraj Mərkəzinin yaradılması ilə ölkədə tərəflər arasında mübahisələrin həll edilməsinin alternativ bir yolu olan arbitrajın inkişafı üçün bütün vacib elementlər – arbitrajla bağlı mütərəqqi hüquqi baza, arbitrajın inkişafı üçün dövlət dəstəyi və yeni yaradılmış arbitraj təşkilatı – artıq formalaşmışdır.
Qeyd edək ki, “Arbitraj haqqında” Azərbaycan Respublikasının Qanunu 2024-cü il 25 yanvar tarixində qüvvəyə minmişdir və arbitraj sahəsində ən müasir təcrübələri əks etdirən “Beynəlxalq Ticarət Arbitrajı haqqında” 1985-ci il tarixli (2006-cı ildə edilmiş dəyişikliklərlə) UNCITRAL Model Qanundan belə daha mütərəqqi xarakter daşıyır. Qanun Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq ticarət hüququ üzrə Komissiyası (UNCITRAL) tərəfindən sınaqdan keçmiş və Komissiya həmin Qanunun mütərəqqi beynəlxalq təcrübəni əks etdirən və

“Mübahisələrin həlli” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 31.05.24-cü il tarixində təsdiq olunub.

beynəlxalq arbitraj sahəsində vahid standartlar müəyyən edən “Model Qanuna” uyğun olduğunu təsdiqlənib.

Bakı Arbitraj Mərkəzin yaradılması dövlət-özəl tərəfdaşlığının ən önəmli təzahürlərindən biridir. Belə ki, dövlət iqtisadi subyektlər arasında, xüsusilə xarici elementli mubahisələrin dövlət məhkəmələri tərəfindən deyil, qeyri-dövlət qurumu – arbitraj təşkilatları vasitəsilə həll olunmasına yol açır. Qeyd edilməlidir ki, “Arbitraj haqqında” Qanunun layihəsi “Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamı ilə yaradılmış Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın təsdiq etdiyi “Dünya Bankı Qrupunun “Əlverişli Biznes Mühiti” layihəsinin “Mübahisələrin həlli” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin həyata keçirilməsinə dair 2022-2023-cü illər üzrə Yol Xəritəsi”nin icrasının təmin edilməsi məqsədi ilə hazırlanıb.

Eyni zamanda, arbitrajın təşəkkülü ölkədə sahibkarlığın inkişafına, Azərbaycanın investisiya məkanı kimi cəlbedəcəliyinə, o cümlədən dövlət iqtisadiyyatına və ölkədə hüquq sisteminin möhkəmlənməsinə töhfə verəcək. Bu kontekstdə, arbitraj institutlarının yaradılması və inkişafı mübahisələrin effektiv həlli üçün mühüm mexanizm rolunu oynayır.

Kəmalə Mehdiyevanın fikrincə, Bakı Arbitraj Mərkəzin yaradılması önəmli bir təşəbbüsdür. O qeyd edir ki, danılmaz həqiqətdir ki, iqtisadi münasibətlərin qloballaşması fenomeni mübahisələrin həllinin spesifik üsulunun - arbitrajın inkişafına səbəb olub və Bakı Arbitraj Mərkəzin fəaliyyəti ölkəmizdə və regionda arbitraj mexanizmini inkişaf etdirməyə imkan verəcək və bununla da Azərbaycan Respublikasında əlverişli biznes və investisiya mühitinin təşviq edilməsinə töhfə verəcək.

“Mübahisələrin həlli” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 31.05.24-cü il tarixində təsdiq olunub.

**Mənbə:**

https://report.az/hadise/azerbaycanda-baki-arbitraj-merkezi-yaradilib/

## Digər saytlar və portallar

1. https://report.az/ru/proisshestviya/v-azerbajdzhane-sozdan-bakinskij-arbitrazhnyj-centr/
2. https://marja.az/124959/azerbaycanda-baki-arbitraj-merkezi-yaradilib
3. https://az.trend.az/azerbaijan/society/4007843.html
4. https://www.e-huquq.az/az/news/xeberler/96559.html
5. https://pravda.az/news/176307

6. https://adekvat.az/manset/49912-azerbaycanda-baki-arbitraj-merkezi-yaradilib.html
7. https://nocomment.az/baki-arbitraj-merkezi-yaradilib/
8. https://www.regionxeberlericom.az/cam/110810-baki-arbitraj-merkezi-yaradilib.html
9. https://bakivaxti.az/az/posts/detail/azerbaycanda-baki-arbitraj-merkezi-yaradilib-1739971132
10. https://ikisahil.az/post/574404
11. https://www.bakupost.az/az/baki-arbitraj-merkezi-yaradildi
12. https://bakunews.az/cemiyyet/20498-azerbaycanda-baki-arbitraj-merkezi-yaradilib.html
13. https://baku.news/baki-arbitraj-merkezi-yaradilib
14. https://valyuta.az/az/read/65453/
15. https://fed.az/az/diger/azerbaycanda-baki-arbitraj-merkezi-yaradilib-223753
16. https://tribunainfo.az/azerbaycanda-baki-arbitraj-merkezi-yaradildi/
17. https://sizinxeber.az/society/hadis/71508-azrbaycanda-bak-arbitraj-mrkzi-yaradlb.html

“Mübahisələrin həlli” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 31.05.24-cü il tarixində təsdiq olunub.

## Effektiv idarəetmə və makroiqtisadi göstəricilər İşçi qrupunun iclası

**18.02.2025**

azranking.az

### Effektiv idarəetmə və makroiqtisadi göstəricilər işçi qrupunun növbəti iclası keçirilmişdir




14 fevral 2025-ci il tarixində saat 16:00-da Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Effektiv idarəetmə və makroiqtisadi göstəricilər işçi qrupunun növbəti iclası keçirilmişdir.

“Webex” platforması üzərindən həyata keçirilən iclasda Azərbaycan Respublikası Mərkəzi Bankının, Maliyyə Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, Dövlət Neft Fondunun, Dövlət Statistika Komitəsinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Energetika Nazirliyinin məsul şəxsləri iştirak etmişlər. İclasda işçi qrupunun 2024-cü il üzrə fəaliyyət planında nəzərdə tutulmuş işlər müzakirə edilmiş, qarşıda duran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Büdcə şəffaflığının təmin edilməsi, borc dayanıqlılığının artırılması, dövlət tənzimlənməsi yükü, borc dinamikası, monetar azadlıq, qlobal İnnovasiyalar İndeksi habelə təbii resursların effektiv idarə edilməsi ilə bağlı məsələlər iclasda əsas müzakirə mövzusu olmuşdur. İclasda 2024-cü il ərzində ölkəmizin beynəlxalq reytinqlər üzrə irəlləmənin olması qeyd olunmuşdur.

Qarşılıqlı müzakirə formatında aparılan iclasın nəticəsində ölkəmizin beynəlxalq reytinqlərdə mövqeyinin yüksəldilməsi istiqamətində fəaliyyətlərin icra edilməsi, dövlət tənzimlənməsi yükünün optimallaşdırılması və təbii resursların effektiv idarə edilməsi barədə tədbirlərin icra

“Effektiv idarəetmə və makroiqtisadi göstəricilər” işçi qrupunun 2024-cü il üçün Fəaliyyət Planı 27.03.2024-cü il tarixində təsdiq olunub

edilməsi çərçivəsində 2025-ci il ərzində işlərin dahada effektiv idarəedilməsi qərarı alınmışdır.
İclasda həyata keçirilən tədbirlərin effektivliyi qiymətləndirilmiş, qarşıdakı dövrdə atılacaq addımlar müəyyən olunmuşdur. İşçi qrupunun üzvləri ölkəmizin dayanıqlı iqtisadi inkişafını təmin etmək üçün fəal müzakirələr aparmış və gələcək planlar üzrə razılaşmalar əldə etmişdirlər.

**Mənbə:**

https://azranking.az/az/article/Effektiv%20idar%C9%99etm%C9%99%20v%C9%99%20makroiqtisadi%20g%C3%B6st%C9%99ricil%C9%99r%20i%C5%9F%C3%A7i%20qrupunun%20n%C3%B6vb%C9%99ti%20iclas%C4%B1%20ke%C3%A7irilmi%C5%9Fdir.-55.html

"Effektiv idarəetmə və makroiqtisadi göstəricilər" işçi qrupunun 2024-cü il üçün Fəaliyyət Planı 27.03.2024-cü il tarixində təsdiq olunub